## AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI* |
| Qəbul edildiyi tarix | *24.01.2014* |
| Qeydiyyat nömrəsi | *Q-02* |
| Adı | *"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi və bəzi normativ hüquqi aktların ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2011-ci il 06 dekabr tarixli Q-01 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *06.02.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.050.030* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201401240002* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *05.02.2014* |

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 14 may tarixli 649-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 04 iyul tarixli 937 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2011-ci il 06 dekabr tarixli Q-01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bənddə "9.5" rəqəmləri "8.1-1" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2.1-ci bəndə "blanklarının əsli və surəti" sözləri "blankları" sözü ilə əvəz edilsin;

1.3. 2.2-ci bənddə “Blankların əsli” sözləri “Blanklar” sözü ilə əvəz edilsin, “, surəti isə adi A4 kağız formatında olan ağ vərəqdə, yalnız üz hissədən ibarət olmaqla” sözləri çıxarılsın;

1.4. 2.3-cü bənddə “əsli və surətinin” sözləri çıxarılsın;

1.5. 2.4-cü bənddə “əslinin” sözü çıxarılsın;

1.6. 2.5-ci bənd ləğv edilsin;

1.7. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.7. Büro çap olunmuş şəhadətnamə blanklarının seriya və nömrələrini həmin şəhadətnamə blanklarının Büroya daxil olduğu tarixdən 1 iş günü müddətində müvafiq informasiya sisteminə daxil etməlidir.”

1.8. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Sığorta müqaviləsinin bağlanması üçün ilk öncə informasiya sistemi tərəfindən tələb olunan aşağıdakı məlumatlar sığortaçının əməkdaşı və ya sığorta vasitəçisi tərəfindən həmin sistemdə qeyd edilir:”

1.9. 3.1.2.1-ci bənddə “nömrəsi” sözündən sonra “, 2.4-cü bənddə vətəndaşların şəxsiyyət vəsiqəsinin PİN kodu (fotoşəkil olan hissəsinin axırıncı sətrinin son səkkiz simvolunun ilk yeddisi), hərbiçilərə münasibətdə isə onların şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi” sözləri əlavə edilsin;

1.10. 3.1.2.2-ci bənddə “nömrəsi” sözündən sonra “, 2.4-cü bənddə VÖEN-i” sözləri əlavə edilsin;

1.11. 3.1.3-cü bənddə “rekvizitləri” sözü “adı, nömrəsi və verildiyi tarix” sözləri ilə əvəz edilsin;

1.12. Aşağıdakı məzmunda 3.1–1 - 3.1–3-cü bəndlər əlavə edilsin:

“3.1–1. Şəhadətnamə, müvafiq blankın nömrəsi informasiya sisteminə daxil edilməklə avtomatik qeydiyyata alındıqdan sonra texniki vasitədə çap olunmaqla və ya əl ilə doldurulur.

3.1–2. Şəhadətnamə formasının “Şəhadətnamə №” hissəsində informasiya sistemi tərəfindən avtomatik müəyyən edilən müvafiq nömrə qeyd edilir.

3.1–3. Blank, onun qırmızı şriftlə qeyd edilmiş BA-dan başlayan iki hərfli “Seriya”sı və eyni rənglə göstərilmiş “№” işarəsindən sonrakı altı rəqəmli nömrəsi müvafiq olaraq blankın yaşıl şriftlə doldurulması nəzərdə tutulan “Seriya” və “№”si xanalarında qeyd olunmaqla informasiya sistemi tərəfindən təsdiqlənməlidir.”

1.13. 3.2-ci bənddə “əsli” sözü çıxarılsın;

1.14. 3.3-cü bənd ləğv edilsin;

1.15. “Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları”na Əlavənin “Daşınmaz əmlakın icbari sığortası şəhadətnaməsi” hissəsində “Sığortalının (hüquqi şəxs olduqda, səlahiyyətli nümayəndəsinin) imzası ________” sözləri çıxarılsın;

1.16. Həmin Əlavənin “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunundan Çıxarış” hissəsində ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“Maddə 8.1-1. İcbari sığorta müqaviləsi yalnız “İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş informasiya sistemi vasitəsilə bağlandığı və həmin sistemin informasiya ehtiyatında mövcud olduğu halda etibarlıdır.”;

1.17. Həmin Əlavənin Qeyd hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Sığortalının bağladığı icbari sığorta müqaviləsinin mövcudluğu barədə mobil telefon və internet vasitəsilə müvafiq informasiya sistemindən təsdiqləyici bilgi almaq və həmin müqavilədə əks olunan məlumatları əldə etmək imkanı vardır.

2. Sığortalı və ya sığorta olunan bu şəhadətnamə əsasında bağlanmış icbari sığorta müqaviləsi üzrə hüquqlarının pozulduğunu hesab etdiyi hallarda 404-46-99 nömrəli telefonla və ya www.sigorta.maliyye.gov.az internet səhifəsində mövcud olan «Sorğu və müraciətlər» bölməsi, yaxud info@maliyye.gov.az elektron poçt ünvanı vasitəsilə Bakı şəhəri, Səməd Vurğun küçəsi-83 ünvanında yerləşən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinə şikayət edə bilər."

**2.** Həmin Qərarla təsdiq edilmiş "Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddə "5.3-cü" sözündən sonra "8.1-1-ci" sözü əlavə edilsin;

2.2. 2.1-ci bəndə "blanklarının əsli və surəti" sözləri "blankları" sözü ilə əvəz edilsin;

2.3. 2.2-ci bənddə "Blankların əsli" sözləri "Blanklar" sözü ilə əvəz edilsin, "surəti isə adi A4 kağız formatında olan ağ vərəqdə, yalnız üz hissədən ibarət olmaqla çap edilir" sözləri çıxarılsın;

2.4. 2.3-cü bənddə "əsli və surətinin" sözləri çıxarılsın;

2.5. 2.4-cü bənddə "əslinin" sözü çıxarılsın;

2.6. 2.5-ci bənd ləğv edilsin;

2.7. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. Büro çap olunmuş şəhadətnamə blanklarının seriya və nömrələrini həmin şəhadətnamə blanklarının Büroya daxil olduğu tarixdən 1 iş günü müddətində müvafiq informasiya sisteminə daxil etməlidir."

2.8. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. Sığorta müqaviləsinin bağlanması üçün ilk öncə informasiya sistemi tərəfindən tələb olunan aşağıdakı məlumatlar sığortaçının əməkdaşı və ya sığorta vasitəçisi tərəfindən həmin sistemdə qeyd edilir:"

2.9. 3.1.3-cü bənddə "rekvizitləri" sözü "adı, nömrəsi və verildiyi tarix" sözləri ilə əvəz edilsin.

2.10. Aşağıdakı məzmunda 3.1–1 - 3.1–3-cü bəndlər əlavə edilsin:

"3.1–1. Şəhadətnamə, müvafiq blankın nömrəsi informasiya sisteminə daxil edilməklə avtomatik qeydiyyata alındıqdan sonra texniki vasitədə çap olunmaqla və ya əl ilə doldurulur.

3.1–2. Şəhadətnamə formasının "Şəhadətnamə №" hissəsində informasiya sistemi tərəfindən avtomatik müəyyən edilən müvafiq nömrə qeyd edilir.

3.1–3. Blank, onun qırmızı şriftlə qeyd edilmiş CA-dan başlayan iki hərfli "Seriya"sı və eyni rənglə göstərilmiş "№" işarəsindən sonrakı altı rəqəmli nömrəsi müvafiq olaraq blankın bənövşəyi şriftlə doldurulması nəzərdə tutulan "Seriya" və "№"si xanalarında qeyd olunmaqla informasiya sistemi tərəfindən təsdiqlənməlidir."

2.11. 3.2-ci bənddə "əsli" sözü çıxarılsın;

2.12. 3.3-cü bənd ləğv edilsin;

2.13. "Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları"na Əlavənin "Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığorta şəhadətnaməsi" hissəsində "Sığortalının (hüquqi şəxs olduqda, səlahiyyətli nümayəndəsinin) imzası _____" sözləri çıxarılsın;

2.14. həmin Əlavənin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunundan Çıxarış" hissəsinə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Maddə 8.1-1. İcbari sığorta müqaviləsi yalnız "İcbari sığortalar haqqında" Azərbaycan

Respublikası Qanununda nəzərdə tutulmuş informasiya sistemi vasitəsilə bağlandığı və həmin sistemin informasiya ehtiyatında mövcud olduğu halda etibarlıdır.

2.15. həmin Əlavənin Qeyd hissəsinə aşağıdakı məzmunda birinci bənd əlavə edilsin və qeyd hissəsinin mətni ikinci bənd hesab edilsin:

"1. Sığortalının bağladığı icbari sığorta müqaviləsinin mövcudluğu barədə mobil telefon və internet vasitəsilə müvafiq informasiya sistemindən təsdiqləyici bilgi almaq və həmin müqavilədə əks olunan məlumatları əldə etmək imkanı vardır."

**3.** Həmin Qərarla təsdiq edilmiş "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 1.3-cü bənddə "5.3-cü," sözündən sonra "8.1-1-ci," sözü əlavə edilsin, "51.1-ci" sözü çıxarılsın;

**3.2.** 2.3-cü bənddə "çap olunma tarixindən" sözləri" "həmin şəhadətnamə blanklarının Büroya daxil olduğu tarixdən" sözləri ilə əvəz edilsin, "avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə" sözləri çıxarılsın;

**3.3.** 3.1-ci bənddə "avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə", "(bundan sonra – "informasiya sistemi")" sözləri çıxarılsın;

**3.4.** 3.6.1-ci bənddə "isə" sözü çıxarılsın, mötərizədən sonra ", hərbiçilərə münasibətdə isə onların şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi" sözləri əlavə edilsin;

**3.5.** 3.8-ci bənddə "avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə" sözləri çıxarılsın;

**3.6.** "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları"na Əlavənin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunundan Çıxarış hissəsində ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"Maddə 8.1-1. İcbari sığorta müqaviləsi yalnız "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş informasiya sistemi vasitəsilə bağlandığı və həmin sistemin informasiya ehtiyatında mövcud olduğu halda etibarlıdır."

**4.** Həmin Qərarla təsdiq edilmiş "Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta şəhadətnaməsinin forması, çap olunması və doldurulması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.3-cü bənddə "9.5-ci" sözü "8.1-1-ci", "36.1-ci" sözü isə "66-cı" sözləri ilə əvəz edilsin;

4.2. 2.1-ci bəndə "blanklarının əsli və surəti" sözləri "blankları" sözü ilə əvəz edilsin;

4.3. 2.2-ci bənddə "Blankların əsli" sözləri "Blanklar" sözü ilə əvəz edilsin, ", surəti isə adi A4 kağız formatında olan ağ vərəqdə, yalnız üz hissədən ibarət olmaqla" sözləri çıxarılsın;

4.4. 2.3-cü bənddə "əsli və surətinin" sözləri çıxarılsın;

4.5. 2.4-cü bənddə "əslinin" sözü çıxarılsın;

4.6. 2.5-ci bənd ləğv edilsin;

4.7. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. Büro çap olunmuş şəhadətnamə blanklarının seriya və nömrələrini həmin şəhadətnamə blanklarının Büroya daxil olduğu tarixdən 1 iş günü müddətində müvafiq informasiya sisteminə daxil etməlidir."

4.8. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Sığorta müqaviləsinin bağlanması üçün ilk öncə informasiya sistemi tərəfindən tələb olunan aşağıdakı məlumatlar sığortaçının əməkdaşı və ya sığorta vasitəçisi tərəfindən həmin sistemdə qeyd edilir:”

4.9. 3.1.2.1-ci bənddə “nömrəsi” sözündən sonra “, 2.4-cü bənddə VÖEN-i” sözləri əlavə edilsin;

4.10. 3.1.2.2-ci bənddə “nömrəsi” sözündən sonra “, 2.4-cü bənddə VÖEN-i” sözləri əlavə edilsin;

4.11. Aşağıdakı məzmunda 3.1–1 - 3.1–3-cü bəndlər əlavə olunsun:

“3.1–1. Şəhadətnamə, müvafiq blankın nömrəsi informasiya sisteminə daxil edilməklə avtomatik qeydiyyata alındıqdan sonra texniki vasitədə çap olunmaqla və ya əl ilə doldurulur.

3.1–2. Şəhadətnamə formasının “Şəhadətnamə №” hissəsində informasiya sistemi tərəfindən avtomatik müəyyən edilən müvafiq nömrə qeyd edilir.

3.1–3. Blank, onun qırmızı şriftlə qeyd edilmiş DA-dan başlayan iki hərfli “Seriya”sı və eyni rənglə göstərilmiş “№” işarəsindən sonrakı altı rəqəmli nömrəsi müvafiq olaraq blankın qəhvəyi şriftlə doldurulması nəzərdə tutulan “Seriya” və “№”si xanalarında qeyd olunmaqla informasiya sistemi tərəfindən təsdiqlənməlidir.

4.12. 3.2-ci bənddə “əsli” sözü çıxarılsın;

4.13. 3.3-cü bənd ləğv edilsin;

4.14. “Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta şəhadətnaməsinin forması, çap olunması və doldurulması Qaydaları”na Əlavənin “Sərnişinlərin icbari fərdi qəza sığortası şəhadətnaməsi ” hissəsində “Sığortalının (hüquqi şəxs olduqda, səlahiyyətli nümayəndəsinin) imzası _________” sözləri çıxarılsın;

4.15. həmin Əlavənin “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunundan Çıxarış hissəsi üzrə:

4.15.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“Maddə 8.1-1. İcbari sığorta müqaviləsi yalnız “İcbari sığortalar haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş informasiya sistemi vasitəsilə bağlandığı və həmin sistemin informasiya ehtiyatında mövcud olduğu halda etibarlıdır.”

4.15.2. dördüncü abzasda “qanunvericilikdə” sözü “qanunda” sözü ilə əvəz edilsin;

4.15.3. beşinci abzasda “36.1” rəqəmləri “66” rəqəmləri ilə əvəz edilsin;

4.16. həmin Əlavənin Qeyd hissəsinə aşağıdakı məzmunda birinci bənd əlavə edilsin və qeyd hissəsinin mətni ikinci bənd hesab edilsin:

"1. Sığortalının bağladığı icbari sığorta müqaviləsinin mövcudluğu barədə mobil telefon və internet vasitəsilə müvafiq informasiya sistemindən təsdiqləyici bilgi almaq və həmin müqavilədə əks olunan məlumatları əldə etmək imkanı vardır.”

**5.** Həmin Qərarla təsdiq edilmiş “İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər”in 3–1-ci hissəsində ”avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası” sözləri “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hər hansı icbari sığorta” sözləri ilə əvəz edilsin.

**6.** Həmin Qərarla təsdiq edilmiş “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə yol-nəqliyyat hadisəsi iştirakçılarının tərtib etdiyi protokolun forması və tərtib edilməsi” Qaydasında aşağıdakı dəyişikliklər edilsin:

6.1. Qaydaya Əlavə 1-in “Qeyd” hissəsinin üçüncü abzası ləğv edilsin.

6.2. Qaydaya Əlavə 2-in I hissəsinin üçüncü abzası ləğv edilsin, yeddinci abzasında “müvafiq” sözü “yol-nəqliyyat hadisəsi haqqında” sözləri ilə əvəz edilsin.

6.3. Qaydaya Əlavə 3 yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**7.** Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinə və Dövlət Sığorta Nəzarəti Xidmətinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**Maliyyə naziri** **Samir Şərifov**

*“Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə Yol-nəqliyyat hadisəsinin iştirakçılarının tərtib etdiyi protokolun forması və tərtib edilmə Qaydası”na Əlavə 3*

## Yol-nəqliyyat hadisələrinin nümunəvi sxemləri

**Sxemlərdə istifadə olunan şərti işarələr:**

**«A»**və **«B»** – yol-nəqliyyat hadisəsinin iştirakçısı olan avtonəqliyyat vasitələri;

**«0»** – yol-nəqliyyat hadisəsinin iştirakçısı hadisə nəticəsində dəyən zərərə görə məsuliyyət daşımır.

**«1»** – yol-nəqliyyat hadisəsinin iştirakçısı hadisə nəticəsində dəyən zərərə səbəb olan, yol hərəkəti qaydalarının pozulmasına görə məsuliyyət daşıyır.

**«1/2»** – yol-nəqliyyat hadisəsinin hər iki iştirakçısı yol hərəkəti qaydalarının müvafiq tələblərini pozmaqla hadisə nəticəsində dəymiş zərərə görə birgə məsuliyyət daşıyırlar.




yol-nəqliyyat hadisəsinin iştirakçısı olan və həmin hadisənin baş verməsinə görə yol hərəkəti qaydalarının müvafiq tələblərini pozmaqla məsuliyyət daşıyan avtonəqliyyat vasitəsi;




yol-nəqliyyat hadisəsinin iştirakçısı olan, lakin həmin hadisənin baş verməsinə görə məsuliyyət daşımayan avtonəqliyyat vasitəsi;



və



yol-nəqliyyat hadisəsinin iştirakçısı olan və həmin hadisənin baş verməsinə görə yol hərəkəti qaydalarının müvafiq tələblərini pozmaqla birgə məsuliyyət daşıyan avtonəqliyyat vasitələri;



yol-nəqliyyat hadisəsinin iştirakçısı olan və icazə verilmiş maksimum kütləsi 3,5 t-dan artıq olan yük avtomobili;



yol-nəqliyyat hadisəsinin iştirakçısı olan və icazə verilmiş maksimum kütləsi 2,5 t-dan artıq olan yük avtomobili;



yol-nəqliyyat hadisəsinin iştirakçısı olan və sürəti 40 km/s-dan artıq olmayan avtonəqliyyat vasitəsi;



yol-nəqliyyat hadisəsində iştirak etməyən avtonəqliyyat vasitəsi;



avtonəqliyyat vasitəsinin hərəkət istiqaməti;



avtomobillərin toqquşması zamanı zərbə yeri;



işıqfor (*yanan işıq çarpaz xətlərlə və ya "ox" işarəsi ilə qeyd edilir*)



yolun hərəkət hissəsindəki maneə

**Sxemlərin izahında istifadə olunan akronimlər:**

- **YHH Qanun –** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu;
- **YNH –** yol-nəqliyyat hadisəsi;

## I. Eyni istiqamətdə hərəkət edən nəqliyyat vasitələrinin hərəkəti zamanı baş verən yol nəqliyyat hadisələri

<table>
<tr><th>Sxem № 1.1</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4"></td><td colspan="2">A yerdəyişmə zamanı özündən sağda hərəkət edən B-yə yol vermir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin beşinci hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>9<br>10</td><td>9<br>17</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.2</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4"></td><td colspan="2">A yerdəyişmə zamanı özündən solda hərəkət edən B-yə yol vermir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin beşinci hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>9<br>10<br>17</td><td>9</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.3</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4"></td><td colspan="2">A və B eyni vaxtda yerdəyişmə edərkən A B-yə yol vermir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin beşinci hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>9<br>10</td><td>9<br>10<br>17</td></tr>
</table>

<table>
<tr><th colspan="2">Sxem № 1.4</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td colspan="2" rowspan="4">
</td><td colspan="2">A sola dönərkən düzgün mövqe tutmur və B ilə toqquşur. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin altıncı hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>10<br>13<br>17</td><td>8</td></tr>
</table>

<table>
<tr><th colspan="2">Sxem № 1.5</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td colspan="2" rowspan="4">
</td><td colspan="2">A sola dönərkən sol kənar zolaqda mövqe tutmur və eyni zamanda sol kənar zolaqdan hərəkət hissəsi ilə bir səviyyədə yerləşən eyni istiqamətli hərəkət zolağı ilə sola dönən B ilə toqquşur. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin altıncı hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>13<br>17</td><td>13</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.6</th><th>Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td>
</td><td>B sola dönməni 5.8.1 və ya 5.8.2 nişanlarının olduğu halda hərəkət hissəsi ilə bir səviyyədə yerləşən eyni istiqamətli tramvay yolları ilə yerinə yetirir. A sola dönərkən sol kənar vəziyyəti tutmur. Beləliklə, A və B YHH Qanunun 42-ci maddəsinin altıncı hissəsinin tələblərini pozur.</td><td>1/2</td><td>1/2</td></tr>
</table>

<table>
<tr><th colspan="2">Sxem № 1.7</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td colspan="2" rowspan="4">
</td><td colspan="2">B sola dönməni sol kənar zolaqdan yerinə yetirir. A sola dönməni 5.8.1 və ya 5.8.3 nişanlarının olduğu halda hərəkət hissəsi ilə bir səviyyədə yerləşən eyni istiqamətli tramvay yolları ilə yerinə yetirir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin altıncı hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>13</td><td>13<br>17</td></tr>
</table>

<table>
<tr><th colspan="2">Sxem № 1.8</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td colspan="2" rowspan="4">
</td><td colspan="2">A sola dönməni hərəkət hissəsinin sol kənar zolağı ilə yerinə yetirir. B sola dönməni hərəkət hissəsi ilə bir səviyyədə yerləşən eyni istiqamətli tramvay yolları ilə yerinə yetirir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin altıncı hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>13<br>17</td><td>13</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.9</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">A sağa dönməni hərəkət hissəsinin sağ kənar zolağı ilə hərəkət etmək imkanı olduğu halda, sağ kənar zolaqla yerinə yetirmir. B YHH Qanunun tələblərinə riayət edərək sol kənar zolaqla hərəkət edir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin yeddinci hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>12<br>18</td><td></td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.10</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">B sağa dönməni tormozlama zolağından, A isə sol kənar zolaqdan yerinə yetirir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin yeddinci hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>9<br>12</td><td>9<br>12<br>17</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.11</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">A hərəkət hissəsində olan maneənin sol tərəfindən ötüb keçir. B sol hərəkət zolağı ilə hərəkət edir. Beləliklə, A YHH Qanunun 42-ci maddəsinin beşinci hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>9<br>10</td><td>9</td></tr>
</table>

<table>
<tr><th colspan="2">Sxem № 1.12</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td colspan="2" rowspan="4">
</td><td colspan="2">A və Beyni istiqamətdə eyni zolaqda hərəkət edir. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8</td></tr>
</table>

<table>
<tr><th colspan="2">Sxem № 1.13</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td colspan="2" rowspan="4">
</td><td colspan="2">A və Beyni istiqamətdə eyni zolaqda hərəkət edir. B döngədə sola dönür. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8<br>13</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.14</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">A və Beyni istiqamətdə eyni zolaqda hərəkət edir. B döngədə sağa dönür. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8<br>12</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.15</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">A bir istiqamətdə 2-dən çox hərəkət zolağı olan yolun hərəkət hissəsinin sol kənar zolağı ilə hərəkət edərək qarşısında hərəkət edən yük avtomobili (icazə verilən maksimum kütləsi 3.5 tondan çox olan) ilə toqquşur. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.16</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">A bir istiqamətdə 2 hərəkət zolağı olan hərəkət hissəsinin sol kənar zolağı ilə hərəkət edərək qarşısında hərəkət edən nəqliyyat vasitəsi (surəti 40 km/saatdan çox olmayan) ilə toqquşur. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.17</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">B hərəkət zolaqlarının sərhədlərini göstərən nişanlanma xəttinin üstündən keçərək hərəkət edir. A B-dən arxada hərəkət edir. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8 (və ya 9)</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.18</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">A və B yol kənarı ilə hərəkət edir. A, B-dən arxada hərəkət edir. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8 (və ya 9)</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.19</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">B ayırıcı zolaqla hərəkət edir. A sol kənar zolaqda B-nin arxası ilə hərəkət edir. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8</td><td>8 (və ya 9)</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.20</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">A ayırıcı zolaqla hərəkət edir. B sol kənar zolaqda A-nın qarşısında hərəkət edir. Beləliklə, A YHH Qanunun 1-ci maddəsinin 14-cü bəndinin və 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8 (və ya 9)</td><td>8 (və ya 9)</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.21</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
</td><td colspan="2">B yol çiyini ilə hərəkət edir. A sağ kənar zolaqda B-nin arxası ilə hərəkət edir. Beləliklə, A YHH Qanunun 50-ci maddəsinin üçüncü hissəsinin tələblərini pozur.</td><td rowspan="4">1</td><td rowspan="4">0</td></tr>
<tr><td colspan="2">YNH barədə protokolun 13-cü bəndi</td></tr>
<tr><td>A</td><td>B</td></tr>
<tr><td>8(və ya 9)</td><td>8 (və ya 9)</td></tr>
</table>

<table>
<tr><th>Sxem № 1.22</th><th colspan="2">Şərh</th><th>A</th><th>B</th></tr>
<tr><td rowspan="4">
